# TARİXİ YAŞADAN MƏTBU SALNAMƏ

**Mətbu söz öz yaşarlığı ilə nisbi xarakter daşısa da, zaman və məkan, təbiət və cəmiyyət, əxlaq və mənəviyyat müstəvisində sınağa çəkilərək ictimai mahiyyət kəsb edəndə artıq qəzet səhifələrindən çıxaraq tarixə çevrilir. Təsadüfi deyildir ki, Azərbaycan tarixinin təşəkkül tapıb formalaşmasında milli mətbuatımız əvəzsiz rol oynamışdır.**

Bu mənada respublikamızın media məkanında özünəməxsus yeri olan "Respublika" qəzeti günün reallıqlarına, ictimai-siyasi, sosial-iqtisadi və mədəni proseslərə öz səhifələrində geniş yer ayırmış, ölkəmizdə gedən proseslərə milli dövlətçilik prizmasından yanaşaraq müxtəlif janrlı operativ yazılarla uğurların təntənəsinə təkan vermişdir. Milli Mətbuat Günü münasibətilə "Respublika" qəzeti, onun işgüzar yaradıcı kollektivi haqqında fikir və duyğularımı qələmə almaq üçün qəzetin mətbu salnaməsinə bir daha nəzər saldım.

"Respublika" qəzetinin nəşri əslində Heydər Əliyev siyasi xəttinin ağır çətinliklərdən uğurla çıxdığı sonrakı sürətli yüksəliş dövrünə təsadüf edir. 1994-cü ilin oktyabr və 1995-ci ilin martında baş verən hadisələr yalnız Heydər Əliyev qətiyyətinin təntənəsi ilə aradan qaldırıldı və respublikamız müstəqil dövlət qurmaq imkanı qazandı. Sözün əsl mənasında müstəqil dövlət quruculuğunun üçüncü dövrü başladı. Ölkəni nəhəng quruculuq və abadlaşdırma tədbirləri gözləyirdi. Demokratik dəyərləri və milli dövlətçilik ənənələrini bərqərar etməklə nəhəng iqtisadi strategiya həyata keçirilməli idi. Böyük Öndər titanik fəaliyyəti ilə bu cahanşümul vəzifələrin öhdəsindən qətiyyətlə gəldi. Çox sevindirici haldır ki, həmin dövrdə nəşrə başlayan "Respublika" qəzeti hadisələrin inkişafına operativ müdaxilə etmiş, sözün əsl mənasında böyük Öndərin silahdaşına, mətbu köməkçisinə çevrilmişdir.

Milli Mətbuat Günü münasibətilə yazı üzərində işləyərkən qəzetin bağlamalarını bir daha vərəqlədim. Türkiyə, İran, ABŞ, Çin, Böyük Britaniya, Yaponiya, Fransa, Almaniya və bir sıra digər nüfuzlu dövlətlərə səfərlər, əsl diplomatiya nümunəsi olan görüşlər Azərbaycanın xarici siyasətinin uğurlu yönümünü müəyyən etmişdir. Demokratik dövlət quruculuğu və yeni iqtisadi sistemin formalaşması yolunda atılan addımlara qəzet mətbu sözün təsiri ilə güclü təkan vermişdir.

Qəzetin bağlamalarını vərəqlədikcə bu möhtəşəm təbliğatın geniş panoramı göz önündə canlanır. Xəzər dənizinin enerji ehtiyatlarının istifadəsində göstərilən rəhbər uzaqgörənliyi qəzetin səhifələrində bütün dolğunluğu ilə öz əksini tapmışdır.

Ölkəmizdə keçirilən bütün mötəbər tədbirlərə hazırlığın vəziyyəti və gedişi qəzetin diqqət mərkəzində olmuş və operativ işıqlandırılmışdır. Qəzeti vərəqlədikcə, həyata keçirilən COP29-a hazırlıq tədbirlərinin operativ və məzmunlu xronikası ilə tanış olursan. Heç təsadüfi deyildir ki, belə bir mötəbər tədbirə ev sahibliyi etməsi ölkəmizə yerli, regional və beynəlxalq miqyasda çox böyük dividendlər qazanıb. "Respublika"çılar bu böyük uğura öz mətbu töhfələrini hazırlayıblar.



"Respublika" qəzetinin əməkdaşları fəxr edə bilərlər ki, onlar ölkəmizdə baş verən ictimai-siyasi, sosial-iqtisadi və mədəni proseslərə dərindən müdaxilə edib, siyasətdə varislik ənənələrini bu gün də qoruyub saxlayırlar.

Qəzetin ötən dövr ərzindəki nailiyyətlərindən danışarkən respublikamızın ikinci sənaye və mədəniyyət mərkəzində həyata keçirilmiş işlərə göstərdiyi operativ və səmimi münasibəti xüsusilə qeyd etməliyik. Gəncə şəhəri son illər sözün əsl mənasında inkişafının keyfiyyətcə yeni mərhələsinə daxil olmuşdur. Hündür qaldırıcı kranlar şəhərin bugünkü həyatının rəmzinə çevrilib. Şəhərdə nəhəng abadlaşdırma və quruculuq həyata keçirilir. Yeni yaradılan sənaye, mədəniyyət, idman və ticarət obyektləri ən müasir tələblər səviyyəsindədir. Hər bir gəncəli üçün çox xoşdur ki, qəzet qədim şəhərdə həyata keçirilmiş işlərə gündəlik diqqət və qayğı göstərir, həssaslıqla yanaşır.

Qəzetin bağlamaları qədim şəhərdə həyata keçirilən nəhəng işlərin gərəkli mətbu salnaməsidir. Qədim şəhərin ən yeni dövrü qəzetin səhifələrində tarixə çevrilmişdir.

Ulu öndər Heydər Əliyevin xeyir-duası ilə nəşrə başlayan "Respublika"nın Heydər Əliyev ideyalarına sədaqətini nümayiş etdirməklə ölkə başçısının apardığı uğurlu daxili və xarici siyasəti yekdilliklə alqışlamış və ölkəmizdə həyata keçirilən nəhəng quruculuq işlərinə öz töhfələrini vermişdir. Qəzetin səhifələrində ölkənin uğurlu mətbu salnaməsi yaradılmışdır. Demokratik dəyərlərin, milli dövlətçilik ənənələrinin və milli mənəmlik duyğularının təntənəsi naminə həyata keçirilən işlərə "respublika"çıların verdiyi sanballı töhfələr ölkəmizin inkişaf tarixinə qızıl hərflərlə yazılmışdır.

**Vaqif TANRIVERDİYEV,**
**"Respublika".**